## QÜRBƏT

Uzaqda yurd qoxusu var.
Neçə bələn, dağ ayırır
Təzə qürbət qorxusu var.
Gözlərim qürbət səyriyir.

Yanır, yanır
İçim qürbət havasına.
Yenə içimə çəkilləm,
Çıxıb göyümə çəkilləm
Yenə məni qınasalar.

Qat-qat qürbətlər görünür,
Durub göz-gözə qalalı.
Nə var ağrıdan anarı,
Nə var qürbətdən bəlalı.

Gəldi, bu da son, çatdı
Qürbət çıxmadı içimdən.
Keçdi karvannar da getdi
Tək mənmi qaldım köçümdən?

* * *

Canımızdan şirə çəkir
Əcəl dartıb gora çəkir
Bu yol bizi hara çəkir
Şah olub onda bilərsən.

Gedə-gedə heçə çıxır
Özəşikdi öcə çıxır
Can boğazdan necə çıxır
Ah olub onda bilərsən.

Tək çəkilən, dərdə nə var,
Ta qalmağa yerdə nə var.
Bilməzsən göylərdə nə var
Ruh olub onda bilərsən.

* * *

Enibdi tanrıdan, haqdan
Dərddi, yenə bizə gəlir.
Gedən aldanışa gedir,
Gələn elə duza gəlir.

Mayası qudurub nəfdən
Kefcili bayılıb kefdən
Əzrayılla dörd tərəfdə
Adamlar üz-üzə gəlir.

Beləcə dörüb, törəyib
Qurdu qəmgin, quşu qərib.
Bizi yiyəsizmi görüb
Ölüm üstümüzə gəlir.

* * *

Qaşımıznan göz arası
Olumuna, qalımına şükür



**Tahir Talıblı**

Gecəynən gündüz arası
Gediminə, gəliminə şükür.

Bizi yenə div aparır,
Nağıllar gəlib aparır,
Keflər alladıb aparır,
Biz çəkən zülmünə şükür.

Bir az çalpaşıq veribsən,
Suynan, işıqnan veribsən
Dəryadan bir qaşıq veribsən
Bir qaşıq elminə şükür.

Taxt yazdığın taxtsız olmur
Baxt yazdığın baxtsız olmur
Ölüm heç vaxt vaxtsız olmur,
Vaxtlı-vaxtsız ölümünə şükür.

## VÜCUDNAMƏ

Su kimi torpağa hopduq,
Atadan, anadan qopduq,
Bu dünyada nədən qorxduq,
Sözdən, Allahdan savayı.

Hər gün günü-günə çəkdik,
Çəkəmmədik, yenə çəkdik,
Dərdin önündə nə çəkdik?
Nə çəkdik, ahdan savayı?

Beləcə ömrü bitirdik
Əmri yerinə yetirdik,
Gəldik, gördük, nə götürdük
Quru günahdan savayı?!

## ƏYRİ-DÜZ

*Rəhmətlik Paşa dayımın sözüydü:*
*"Əyri dünyada, düz axtarma".*

İçim səhvlərnən hörülü,
Səf-səf səhvlər naxış oldu.
Nə axa-axa duruldu,
Naxış da ki, yalnış oldu.

Düz görmədim əyri yöndə,
Hər yanda bir ayrı gördüm.
Ayrı yöndə, ayrı donda,
Hər üzdə bir əyri gördüm.

Hər şey dəyişdi içimdə,
Gur axan çaylar qurudu.
Hər nişanda, hər biçimdə,
İçimdə sirlər qarıdı.

Atam İslama demədim,
Anam Həvadan gizlədim.
Daha gücüm çatmır, Allah,
Nəsə nəvədən gizləyim.

Daha gücmü çatar, Tanrı,
Daha belə yaşamağa?
İçində ölən qadının
Cəsədini daşımağa?

Sevgilər də bitər, ancaq
Nə iz qalar, nə başdaşı
Bir başdaşı isladacaq -
Nə gözlərində göz yaşı.

Olacaqlar oldu getdi,
Ya yaz gəldi, ya qış getdi.
Dostlar çoxu öldü getdi,
Çoxu da ölməmiş getdi.

Hər şey dəyişdi içimdə
Gur axan çaylar qurudu.
Bu nişanda, bu biçimdə,
İçimdə dərdlər qarıdı.

Düz görmədim əyri yöndə,
Hər yanda bir ayrı gördüm.
Ayrı yöndə, ayrı donda,
Hər üzdə bir əyri gördüm.

Əlləriynən tikan yolan,
Çiynində duz daşıynan,
Bir kişi var.
Əyri-əyri səhvləriynən
Düz yaşayan.